Hörmətli xanımlar və cənablar!

Hörmətli ICESCO-nun Baş Direktoru cənab Salim M. Al Malik, Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər nazirinin müavini cənab Adil Çalışkan, dəyərli qonaqlar, əziz gənclər!

Sizi bu Yüksək Səviyyəli Yan Tədbirdə salamlayır iştirakınıza  və böyük töhfə verdiyinizə görə təşəkkür edirəm!

COP29 çərçivəsində ICESCO Pavilyonunda çıxış etmək mənim üçün şərəfdir.

Bu mötəbər, dünyanın müxtəlif yerlərindən maraqlı tərəfləri bir araya gətirən tədbirin İqlim dayanıqlılığı və davamlılıq üzrə effektiv fəaliyyətlərin irəlilədilməsi işində hamımıza uğurlar arzulayıram.

Son illərdə insan hüquqları ilə ətraf mühit arasındakı sıx əlaqənin qlobal miqyasda tanınması bu problemin yalnız ekoloji deyil, həm də sosial, iqtisadi və təhlükəsizlik məsələsi olduğunu diqqətə çatdırır.

Hər gün dünyanın müxtəlif yerlərində milyonlarla insan o cümlədən uşaq və gənclər iqlim dəyişikliyini və onun konfliktlərlə bağlı təsirlərini öz həyatlarında hiss edir.

Ən fəal vətəndaşlar kimi gənclər sülh quruculuğuna öz həll yollarını təklif edərək töhfə verirlər. Onlar iqlim dayanıqlılığı və ətraf mühit təşəbbüslərində iştirak edərək, davamlı inkişaf prinsiplərini təşviq edirlər.

Odur ki iqlim dəyişikliyinə qarşı mübarizədə gənclərin iştirakını genişləndirmək, onların hüquqlarını qorumaq və  xüsusi ehtiyaclarını mövcud siyasət və proqramlarda nəzərə almaq vacibdir.

Qlobal miqyasda son məlumatlar göstərir ki, 1 milyarddan çox gənc iqlimlə bağlı fəlakətlərə həssas olan ərazilərdə yaşayır.

Gənclər arasında təhsilin və maarifləndirmənin təşviq edilməsi onların yalnız uyğunlaşmasını deyil, həm də proseslərdə fəal iştirakını vurğulayır.

Xüsusilə qeyd etmək istərdim ki, ekoloji problemlərlə yanaşı, iqlim dəyişikliyi və resurs çatışmazlığı insanlar arasında gərginlik yaradır və nəticədə münaqişələri dərinləşdirir.

BMT-nin Sülh Quruculuğuna  Dəstək Ofisi qeyd edir ki, konfliktlərlə təsirlənən bir çox ölkədə gənclər əhalinin yarısından çoxunu təşkil edir. Bu baxımdan, onların sülh quruculuq səylərinə cəlb edilməsi zorakılığın qarşısını almağa və davamlı inkişafı təşviq etməyə kömək edə bilər.

Eyni zamanda, gənclər iqlim dəyişikliyi və sülhlə bağlı məlumatlılığı artırmaq və bu sahələrdə müzakirələri stimullaşdırmaq üçün sosial mediadan fəal istifadə etməlidirlər.

Rəqəmsal platformalar gənclərə daha geniş auditoriyaya çatmaq və öz ideyalarını bölüşmək imkanı yaradır.

Gənclərin liderliyi fərdi təşəbbüslərlə məhdudlaşmamalıdır. Onların səsinə qulaq asmaq, ideyalarını qəbul etmək və qərarların qəbul edilməsi proseslərinə cəlb etmək daha davamlı və ədalətli gələcək hazırlamaq deməkdir.

Ətraf mühitin vəziyyəti ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas tərkib hissəsidir. Azərbaycanda ekoloji məsələlərin həlli üçün geniş miqyaslı tədbirlər həyata keçirilir.

Resurslardan səmərəli istifadə üçün bir sıra mühüm dövlət proqramları, sosial-iqtisadi inkişaf strategiyaları və geniş fəaliyyət planları reallaşdırılır.

Azad edilmiş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” kimi vahid konsepsiya əsasında genişmiqyaslı bərpa və yenidənqurma işləri, minalardan təmizləmə işləri aparılır.

Gənclər, sülh səfirləri yerli icmalarla birlikdə təbiətin qorunması və tullantıların idarə edilməsi sahələrində layihələr həyata keçirir, startaplar yaradırlar.

Onlar müxtəlif beynəlxalq iqlim tədbirlərində və konfranslarında iştirak edərək öz ölkələrinin iqlim siyasətini təmsil edir və qlobal gənclərlə əməkdaşlıq edirlər. Əminəm ki, bu, bilik mübadiləsi və şəbəkələşmə üçün feniş imkan yaradır.

İqlim dayanıqlılığı və sülh quruculuğunu təmin etmək üçün gənc səfirlər “Sülh üçün Birləşək” kimi müxtəlif virtual platformalar yaratmalıdırlar. Burada onlar bu mövzuları müzakirə edərək diqqət mərkəzində saxlaya bilərlər.

Bu bir həqiqətdir ki, enerjisi, yaradıcılığı və qətiyyəti ilə gənclər güclü və harmonik bir dünyanın memarlarıdır.

Gəlin hamılıqla Gələcəyə doğru irəliləyərkən onların missiyasını  dəstəkləməyə davam edək.

Çünki davamlı gələcək Bizim və İCESCO kimi təşkilatların dəstəyi ilə  gənclərimizin açıq ürəkləri və qərarlı əlləri ilə qurulacaq!

Diqqətinizə görə təşəkkür edirəm!